# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 72 (1200) 16 aprel - 18 aprel 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# Yaz ətirli Cəlilabad

(Əvvəli ötən sayımızda)

**Abadlıq-quruculuq işləri, əhalinin rifahı üçün daha yaxşı şəraitin yaradılması Cəlilabad Rayon İcra Hakimiyyətinin prioritet hesab etdiyi məsələlərdəndir. Rayon mərkəzində, kənd və qəsəbələrdə görülən işlər buna yaxşı sübutdur.**

### *Göytəpə çayının sahilindəki gözəllik*

Cəlilabad rayonunun Göytəpə şəhərinin mərkəzində, Göytəpə çayının sahilində inşa edilən Heydər Əliyev adına park-bulvar sakinlərin, qonaqların tez-tez istirahət etdiyi məkanlardan biridir. Park-bulvarın ərazisində Ümummilli Lider Heydər Əliyevin bürüncdən ucaldılan abidəsinin önündə həmişə təzə çiçəklər olur.

Bu istirahət məkanının ümumi ərazisi 30 min kvadratmetrdir. Burada iki artezian quyusu qazılıb. Park-bulvarda musiqili fəvvarə, müasir işıq dirəkləri, rahat oturacaqlar quraşdırılıb, 15 min kvadratmetr sahədə yaşıllıq zolağı salınıb. Ərazinin genişləndirilməsi və abadlaşdırılması məqsədilə burada qəza vəziyyətində olan beş mənzilli kommunal yaşayış binası, 69 saylı Cəlilabad-Biləsuvar-Masallı seçki dairəsinin inzibati binası və Göytəpə bələdiyyəsinin yerləşdiyi bina sökülərək başqa ərazidə əvəzi ödənilməklə yeni layihə əsasında tikilib. Bərbad vəziyyətdə olan Göytəpə şəhər xəstəxanası da başqa əraziyə köçürülüb.

Qısa müddət ərzində yaradılan bu gözəl məkanın açılışında dövlət başçısı iştirak edib, görülən işlərdən razılığını bildirib.

Parkla tanışlıq zamanı prezident İlham Əliyevə məlumat verilib ki, tikinti işlərinə ötən ilin mayında başlanılıb. Burada sakinlərin istirahətini dolğun və mənalı təşkil etmək məqsədilə bütün zəruri işlər görülüb.

Parkın ətrafına 5 min kvadratmetrlik asfalt döşənib, yeni elektrik xətləri çəkilib. Ətrafda bütün evlər və ictimai obyektlər abadlaşdırılıb.

Bu cür layihələrin icrası bir daha sübut edir ki, şəhərlərimizin və rayonlarımızın abadlaşdırılması istiqamətində görülən işlər davamlıdır və vaxtında, yüksək keyfiyyətlə yerinə yetirilir. Cəlilabad rayonu da bu işlərdə xüsusi fəallıq göstərir.



### *Qələbə müjdəsini gözləyənlər*

Son günlərdə işğal olunmuş ərazilərdə erməni silahlı birləşmələrinin təxribat əməllərinə Azərbaycan Ordusunun layiqincə cavab verməsi, igid döyüşçülərimizin düşmənin canlı qüvvəsi və hərbi texnikasını darmadağın etməsi ölkənin hər yerində olduğu kimi, Cəlilabadda da böyük sevinclə qarşılanıb. Bu münasibətlə rayondakı Heydər Əliyev Mərkəzində toplantı keçirilib. Rayon İcra hakimiyyətinin başçısı aparatının, hüquq-mühafizə orqanlarının rəhbər işçilərinin, qeyri-hökumət təşkilatlarının, siyasi partiyaların, kütləvi informasiya vasitələrinin təmsilçilərinin, ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən bu ümumrayon toplantısında Silahlı Qüvvələrimizin qəhrəmanlığı və qələbə əzmi barədə söhbət açılıb.

Toplantıda geniş nitq söyləyən Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov bildirib ki, son günlər işğalçı Ermənistan Azərbaycana qarşı növbəti silahlı təxribat törədib, cəbhənin təmas xəttində yerləşən mövqelərimizə hücum edib, həmin ərazilərdəki yaşayış məntəqələrimizi atəşə məruz qoyub. Bu silahlı təxribat nəticəsində itkilərimiz olub, qəhrəman əsgər və zabitlərimiz şəhidlik zirvəsinə yüksəlib, mülki şəxslər həyatlarını itiriblər.

Rayon İcra Hakimiyyətinin başçısı cəbhə bölgəsində Azərbaycan əsgərlərinin qəhrəmanlığını, xalqın böyük sevincini ölkə rəhbəri, Ali Baş Komandanın həyata keçirdiyi siyasətin təntənəsi olduğunu, Xalq-Dövlət birliyinin gücü-qüdrəti ilə ərsəyə gəldiyi və yaxın vaxtlarda torpaqlarımızın tamamilə azad olunacağını, qaçqın və məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıdacağını xüsusi qeyd edib. Əziz Əzizov bildirib ki, son illər Azərbaycanda müasir hərbi-sənaye kompleksi yaradılıb, Silahlı Qüvvələr üçün kadr hazırlığı təkmilləşdirilib, ordumuz beynəlxalq standartlar əsasında döyüş qabiliyyətini artırıb və bu proses uğurla davam edir: "Ali Baş Komandan İlham Əliyevin iqtisadi, hərbi üstünlüyümüz və hərbi potensialımızın ən yüksək səviyyədə olması bizə imkan verir ki, istənilən anda torpaqlarımızı işğaldan azad edək deməsi, əslində, Azərbaycan Silahlı Qüvvələrinin gücü və qüdrətinə olan inamın ifadəsidir. Bu inam isə son günlər cəbhə xəttində işğalçı Ermənistanın layiqli cavab almasında, Azərbaycan Ordusunun düşmənin xeyli sayda canlı qüvvəsini məhv etməsində və bir neçə strateji yüksəkliyi düşmən tapdağından azad edilməsində bir daha təsdiqini tapdı. Aprelin 1-dən 2 -nə keçən gecə işğalçı erməni bölmələri cəbhəyanı yaşayış məntəqələrini və Azərbaycan ordusunun mövqelərini artilleriya atəşinə tutması məkrli siyasətin tərkib hissələrindən biri kimi qiymətləndirilə bilər. Dinc sakinlərə qarşı bütün cəbhə boyu erməni qəsbkarlarının qanlı döyüşlərinə isə Azərbaycan ordusu layiqli cavab verib, düşmənin 100-dən çox canlı qüvvəsi, çoxlu sayda döyüş texnikası məhv edilib, bir neçə strateji yüksəklik ermənilərdən geri alınıb. Bu, bir daha göstərir ki, Azərbaycan Silahlı Qüvvələri hər an qarşıya qoyulan vəzifələri həll etməyə qadirdir. Son günlərin cəbhə xronikası, Azərbaycan Silahlı Qüvvələrinin göstərdiyi rəşadət heç kimin iradəsindən asılı olmayaraq yağı düşmənin tapdağında olan əzəli və əbədi torpaqlarımızın tezliklə azad ediləcəyinə əminlik ifadə edir. Bu əminlik isə ölkəmizin hərbi-siyasi üstünlüyü, bir də Ali Baş Komandan, prezident İlham Əliyevin xalqla birliyində daha real görünür. Silahlı Qüvvələrimizin əldə etdiyi böyük qələbə bütün cəlilabadlılarda ruh yüksəkliyi yaradıb, qələbədən sevinc hissi duyublar".

**"Cəlilabad Azərbaycanın ən gözəl şəhərlərindən biridir. Mən bura hər gələndə yeni obyektlərin açılışında iştirak edirəm. Cəlilabad rayonunun inkişafı üçün əlavə tədbirlər görüləcək"**

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

Tədbirdə YAP rayon təşkilatının sədri Mirsüleyman Mirxaslı ,YAP rayon gənclər təşkilatının sədri Vüsal Kazımov, Qarabağ qazisi Maşallah Əliyev, rayon ağsaqqalı Ədalət Əsgərov, şəhid atası Mirəzbər Mürsəlov çıxış edərək, cəlilabadlıların qələbədən sonsuz sevinc duyduqlarını, hər an Prezidentin əmri ilə Vətən yolunda canlarından keçməyə hazır olduqlarını, bu şərəfli yolda heç nələrini əsirgəməyəcəklərini bildirib, xalqımızı həmişəki kimi dövlət başçısının ətrafında sıx birləşməyə çağırıblar. Toplantı iştirakçıları dünya ictimaiyyətindən, beynəlxalq təşkilatlardan Azərbaycan xalqına qarşı törədilən ədalətsizliklərə qarşı səslərini ucaltmağı tələb ediblər.



Cəlilabad gəncləri də son günlərin hadisələrini böyük ruh yüksəkliyi ilə qarşılayıblar. Onlar əzəli torpaqlarımızı düşmən işğalından xilas etməyə hər an hazır olduqlarını ifadə edirlər. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin təşkilatçılığı ilə aprelin 5-də rayondakı Heydər Əliyev parkında gənclərin həqiqi hərbi xidmətə yolasalma mərasimi keçirilib. Tədbirdə Cəlilabad Rayon İcra hakimiyyətinin başçısı Əziz Əzizov, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon idarəsinin rəisi, polkovnik Həsrət İsmayılov, Mətbuat Şurasının sədr müavini Umud Rəhimoğlu, Qarabağ Qaziləri İctimai Birliyinin sədri Etimad Əsədov, tanınmış hərbi diktor, hərbi vətənpərvərlik mahnılarının ifaçısı Şəmistan Əlizamanlı, valideynlər iştirak ediblər. Sonra çağırışçı gənclər Azərbaycan bayrağı və müqəddəs Quranın altından keçərək avtobuslarla hərbi hissələrə yola düşüblər.

**İşğalçı ermənilər üzərində qazanılacaq böyük qələbədə cəlilabadlı gənclərin də payı olacaq.**

**E. CƏBRAYILOĞLU**